Azərbaycan poeziyası

# MƏHƏMMƏD HADİ

## seçmə şeirlər

QANUN NƏŞRİYYATI

Məhəmməd Hadi XX əsr romantizminin ən məşhur simalarından biridir. O, Vətən və hürriyyət mövzusundakı şeirləri ilə daha çox tanınır. "Qanun" nəşriyyatının yeni layihəsi olan "Azərbaycan poeziyası seçmə şeirlər" silsiləsində sizə təqdim etdiyimiz bu kitab oxucularımızın Məhəmməd Hadi yaradıcılığı ilə yaxından tanış olması üçün yeni fürsətdir. Kitaba 1906-1919-cu illərdə qələmə alınmış seçmə şeirlər daxil edilib.

Şairin poetik dili oxuculara tam aydın olsun deyə, ərəb-fars sözlərinin izahı son səhifələrdə verilib.

**Məhəmməd Hadi  Azərbaycan poeziyası seçmə şeirlər**
Bakı, Qanun nəşriyyatı, 2023, 368 səh.

Ölçü: 120x185 mm
Cild: qalın
Çapa imzalandı: 07.12.2022

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərtib edən və redaktor: | Əyyub Qiyas (Qi Or El) |
| Texniki redaktor və mətn dizaynı: | Asifə Əfəndi |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-452-9

© Qanun Nəşriyyatı, 2023

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

## Mündəricat

ÖN SÖZ
Cümhuriyyətə gedən yolun şairi
Məhəmməd Hadi ....................11
Vətənin nidası....................26
Mələkim, nədir o?....................27
Gözlərin ....................29
Təraneyi-qəmpərvəranə....................31
Dünya saheyi-qəmdir....................33
Dilək ölməz ....................34
Nəğmeyi əhrarana....................36
Məktəb ....................38
Məktəb şərqisi....................40
Birinci Qosudarstvennaya Dumanın iniqadi
münasibətilə söylənmişdir ....................42
İnsan nə ilə mükərrəm olur?....................44
Biz nə haldayıq?....................46
Zövheyi-təsviri maarif....................47
Maarifə dair ....................50
Qələmə....................51
Amali-tərəqqi ....................52

Qızlar bağçası ........................................................ 54
Amali istiqbal ........................................................ 56
Mənaziri təbiət ........................................................ 57
Kitabi-həyat ........................................................ 58
Bədayeyi təbiət ........................................................ 61
Hissiyyati-madəranə ........................................................ 62
El fəryadı ........................................................ 65
İsmət, yaxud əfif olan zatların xəsaili ........................................................ 67
Tövsiyyeyi-mürğ ........................................................ 69
Təbriki-eydi-ezha ........................................................ 70
Təraneyi-milli ........................................................ 73
Bülbül ........................................................ 76
Fəzaili-insaniyyə ........................................................ 78
Saqiyə bir niyazi-ricaməndanə ........................................................ 79
Pəriyi-vicdan ........................................................ 80
Arzuyi-dil ........................................................ 81
Sevgili şagirdlərimizə tövsiyə ........................................................ 83
Bir əməlim ........................................................ 84
Lövheyi bahar ........................................................ 87
Şirvan xatiratı (Rövşənayi -Leyldə bir xərəbazarın mənzərəsi) ........................................................ 89
Facieyi-həyatımızdan bir pərdə ........................................................ 92
Amali-vicdan ........................................................ 95
Təxəttüri-mazi ........................................................ 97
Ulduzlara ........................................................ 98
Cahan sərasər meydani-cəngi-fitrətdir ........................................................ 100
Molla Nəsrəddinə ........................................................ 101
Bükayi-təbiət ........................................................ 104
Nəvayi-rindanə ........................................................ 106
Axşam tənəzzöhləri ........................................................ 108

Dad istibdaddan ............................................................ 112
Həsbihal, yaxud bizim Hadinin iztirabı ............................ 114
Bir aşiqi hürriyyətin ehtisasatı-ruhiyyəsini təsvir və
iraə edən bir lövhədir ................................................ 116
Əlvida, yaxud acı bir iqrar ........................................... 118
Nəyimiz var? ................................................................. 120
Mücahidi millət Həsən bəyin ruhuna ithaf ........................ 122
Kimdən kimə şikayət edəlim? ........................................ 125
Əldibi-şəhir Həsən bəyin ruhuna ithaf .............................. 127
Rəhgüzari-mətbuatda bir şükufeyi-məarif ........................ 128
Təsviri-bədaye ............................................................... 131
Nəvəhati-həyat ............................................................... 134
Şərareyi-ruh ................................................................... 136
Təraneyi-vətənpərəstanə ................................................ 141
Ah, kimsəsiz Vətən! ....................................................... 144
Ey mütribeyi-dövri-təməddün ........................................ 147
Şikvayi-aşiqanə, yaxud əlhani-pərişan ............................. 150
İstiqbalımız parlaqdır ..................................................... 154
Həqiqi bir xəyal, yaxud bir lövheyi-cəmal ........................ 158
Biz həqiqətə gülürük, həqiqət bizə ağlayır ........................ 160
Ləyali-vüsal, yaxud keçən gecə ........................................ 162
Ey pəriyi-istiğna! ........................................................... 163
İranın hürriyyət qəhrəmanlarına ..................................... 165
Təsviri-məhəbbət, yaxud vərəqi-eşqü məvəddət ............... 167
Mən bir kitabəm ............................................................. 170
Əşari-pərişan, yaxud solğun çiçəklər ............................... 173
Milli nəğmələr ................................................................. 176
Rəhgüzari-mətbuatda lövheyi-şəfqət, yaxud üç zavallı .... 179
Ədvari təcəddüd, əsari-inqilab ........................................ 180
Həqiqət acımı, dadlımı? .................................................. 182

Zümzümati-təhəssürat, yaxud qarışıq xəyallar ....................188
Əksi-ənini-vətən ........................................................192
Mizani-əqvam ............................................................194
Fədakarlıq-mərdanəlik ................................................196
Yazıq millət! ...............................................................197
Duşizeyi-hürriyyətə ....................................................198
Bir mütəəllim rəfiqimin fotoqrafına qarşı söylənmişdir ..199
Qələm ........................................................................202
Qələm nə söyləyir ......................................................204
Məşuqəmə .................................................................209
Cəhalətimdən şikayət .................................................210
Bu da bir həqiqət ........................................................211
Sofiyə-Zahidə .............................................................212
Gül, sevdiyim gül! ......................................................213
Rüfəqadan birinin məktubuna yazılan
məhəbbətnamədir .......................................................216
Əql ............................................................................217
Zavallı könlüm ............................................................218
Təraneyi-əhrarانə ........................................................219
Biz Vətən viranəsin ədl ilə abad istərik .......................221
Əfkari-pərişan, ya ki təraneyi-təhayyürانə ...................223
Məşriqdən bir səda .....................................................227
Bariqeyi zəfər parlayır, istiqbal bizimdir .....................229
İşıq və təzə aləm ........................................................238
Dilənçi ......................................................................240
Aliheyi-Hürriyyəytə! ...................................................241
Qanuni-təkamül .........................................................244
Əndişeyi-həyat ...........................................................246
Aşiyani-viran .............................................................248
Təkamüli-məkus və ümmidi-pərişan ...........................251

Oxu, bil, öyrən!....................................................................256
Fəxamətli əfəndim, pardon!....................................................258
Gərəkməz..........................................................................261
Bir iştiyaki-möhriq... Çeşmi-ədəb bu gün ədəbiyyata
ağlayır ................................................................................262
Sabirin yadigarına itham......................................................264
Cinsi-lətifə ..........................................................................265
Tofiq Fikrətə........................................................................266
Ağlayan şeirlər.....................................................................267
Nisviyyət tərənələri..............................................................269
Əzhari-əfkar.........................................................................271
Pəyami-dilaram....................................................................274
Bahari-əfkar .........................................................................275
Asi şeirlər ............................................................................278
Qüvvət, həyat, ümid ............................................................279
Müəmmayi-kainat.................................................................281
Zamanın məzhəkələrindən....................................................282
Xəluqun pədəri ....................................................................283
Xəndeyi-zəfər.......................................................................285
Timsali-məlal, hüsni-məhzun ..............................................286
Qanlı sətirlər və qaileyi-həyat ..............................................288
Fəzilət sahibləri.....................................................................290
Şərareyi-əfkar ......................................................................293
Şeytani-Rəcibin cənab Rəhimə xitabələri ...........................294
Aşiqi Giryan, canani xəndan ................................................296
Açıq və aydın düşüncələr......................................................298
Livayi-zəfərin tamaşası.........................................................300
Ümid səhneyi-tamaşayi-həyatın ruhudur ...........................302
Parlaq günəş altında işıqsız gözlər........................................304
Nisvanı sanma yalnız, sərdari zihəşəmdir............................306

Ləyamut şeirlər ....................................................................307
Alihati-ilhamat və həyat pərəstidələri.................................309
Ulduzlara doğru...................................................................311
Nasıl yüksəlməli ...................................................................312
Cəhalət zənciri və kor gözlü rəhbər .....................................315
Fikrət......................................................................................316
Meydani-hərb xatirələrimdən...............................................318
Ulduzlu bir gecədə müharibə tamaşası və "Şahnamə"
şairi-ziiqtidarını xatırlamaq ..................................................320
Ayrılıq dəqiqələri...................................................................324
Həyati-hazırəmizin ilhamları ...............................................326
Şeir inciləri............................................................................327
Baharın ilhamları və ictimai rəmzlər....................................328
Ey pərdeyi-mənhusdə qalmış güli-zində!............................330
Qəmərə..................................................................................331
Lüğət......................................................................................334

# ÖN SÖZ

## CÜMHURİYYƏTƏ GEDƏN YOLUN ŞAİRİ - MƏHƏMMƏD HADİ

Haqqında az yazılan, az tədqiq olunan, poeziyası ərəb-fars izafətlərindən yoğrulmuş çətin anlaşılan dilin şairidir Hadi. Amma çətinlik bunlarda deyil, əlbəttə. Hadi yaradıcılığı bütün parametrləri ilə XX əsr dünya poeziyasının ölçülərinə adekvatdır. Onu bu ölçülər daxilində araşdırmaq, bu yöndən tədqiq etmək müəyyən estetik səviyyəyə yetmək tələb edir müəllifdən. Və tək onu yox, XX əsrin birinci yarısında yaşayıb-yaratmış əksər sənət fədailərimizin irsini.

Məhəmməd Hadi sovet rejiminin qurbanlarından biri oldu. Bu cür vətən sevdalı şairi, dövrün Osmanlı mətbuatını belə lərzəyə gətirən, açıq və üsyankar yazılarına görə barəsində ölüm hökmü kəsilən nəhəng bir sənətkarı sovet hökuməti sərxoş, sərgərdan biri kimi tanıtdı bizlərə. Taleyin hökmümü deyək buna, ya göy qübbəsi altında heç nəyin boşuna axıb getməməsimi adlandıraq, bilmirəm, hər halda böyük gələcək onların xeyrinə işlədi.

İndi budur, Cümhuriyyətin yüzüncü ildönümünü qeyd edirik, bu söz ardınca bir qism ad gətirir. Vaxtilə sovet rejiminin silməyə, yox etməyə çalışdığı bir qism ad... Bu onların haqqıdır. Çünki Azərbaycan Cümhuriyyəti bir tarixi, ideoloji və siyasi fakt olaraq yalnız tarixi şəraitin məhsulu deyil, XIX əsrin sonu XX əsrin əvvəlləri boyu milli siyasi, ədəbi və fəlsəfi düşüncənin nəticə**sidir**. Həmin illərdə bizdə milli dövlətçilik ideyasının tarixi uzağa getməsə də, milli mənlik şüurunun yaranmasının aspektləri bədii düşüncəyə söykənirdi. 1918-ci ildə yaradılan Azərbaycan Cümhuriyyəti də əqidə və məslək birliyinin təzahürü kimi ərsəyə gəldi, seçilmişlərin, yüksək zəka və intellekt sahiblərinin əməl göstəricisi oldu. O da maraqlıdır ki, bizdə heç vaxt intellekt və emosiya potensialı o dönəmdəki kimi  toplu şəklində üzə çıxmadı - vahid ədəbi-estetik qayəyə xidmət mənasında yəni. Cümhuriyyət ədəbiyyatının tədqiqatçısı Alxan Bayramoğlu yazır ki, "... nisbətən üzdə olub qabarıqlığı ilə nəzərə çarpan milli özünüdərk və milli istiqlaliyyət arzusu və idealından irəli gələn vətənpərvərlik hissinin bədii əksi dövrün poeziya və nəsrində özünün dolğun bədii əksini tapmış, hətta poeziyada tərənnüm və milli özünüdərkdən doğan milli ləyaqət və şərəfin vəsfi digər mövzu və problemləri kölgədə qoymuşdur".

Bu intellekt və emosiya potensialının ehtiva olunduğu ən yaxın ünvan Məhəmməd Hadidir. Tək yaradıcılığı ilə yox, bütünlükdə tərcümeyi-halı ilə...

Bilirsinizmi nədir, məncə, nüxbeyi-amal?
Könüldəki əməlim millətin səadətidir...
Ey Vətən! Ey pəriyi-vicdanım!
...Səni sevmək deyilmi imanım?

Hadi vətəni sevməyi imanına çevirdi. Vətən haqqında ən gözəl şeirlərin müəllifi kimi yazdı adını milli ədəbiyyat tarixinə. Hadiyə qədər sevgi obrazının bütün çalarları işlənmişdi ədəbiyyatda. Bütün dərinlik ölçülərində gətirilmişdi poeziyaya. Tək Füzuli faktoru kifayət edir fikrimizi əsaslandırmağa. Amma vətəni iman kimi, ömür kimi sevmək təlimi ilk dəfə Hadinin şeirlərindən saçıldı ədəbiyyata. Hadi toplumdan millətə aparan yolun şairi kimi doğuldu, bu amal uğrunda yaşadı, bu ideya yolunda ömrünü var etdi. Yaşar Qarayev yazır ki, "Hadinin könül verdiyi və ömrünün sonuna qədər "məyus olmadığı" bir "vüsali yar" həsrəti, əbədi nakam qaldığı, fəqət yolundan heç vaxt dönmədiyi bir vüsal intizarı da var idi. Bəs o, nə idi?" Burada Cəlil Məmmədquluzadənin müqəddəs üçlüyü düşür yada: "Vətən, vətən, vətən; dil, dil, dil; millət, millət, millət!". Amma Hadi daha çox vətən dərdlərinin poeziya yaddaşına çevrilməsinə yol açan şair kimi öndədir. Abdulla Şaiq yazırdı: "Hadi qədər hürriyyətə həvəs göstərən bir şair olmamışdır... hər bir əsərində hürriyyəti oxşamadan keçməmişdir". XX əsrin narahat fikir burulğanlarında yaranan poeziyada Məhəmməd Hadinin yeri və rolu da məhz bu həqiqətdədir. Onun Hürr aşiqi, Cümhuriyyətə gedən yolun şairi olmaq statusu daşımasında...

Hadi və romantizm. Məhəmməd Hadi şeirinə dünya ədəbi cərəyanlarının təsiri danılmazdır. Bu dövrdə bir tərəfdən türk şeirinin, digər tərəfdən Avropa şeirinin milli poeziyamızda təzahürü həm dövrün bir çox sənətkarlarının Türkiyə və Avropa təhsili görməsindən, oranın ədəbi-ictimai mühiti, yenilikçi şairləri (Türkiyədə divan-təriqət şeirinin çərçivələrini dağıtmış N.Kamal, Ə.Hamid, T.Fikrət, R.Tofiq, Avropada Höte, Şiller, Bayron, Rusiyada Puşkin, Lermontov, Blok, Yesenin, Bednı, Mayakovski) ilə tanışlıqlarından, həm də tərcümələr vasitəsilə təsirlənmədən doğurdu. Ədəbiyyatşünas Əziz Mirəhmədov "Məhəmməd Hadi" monoqrafiyasında Hadinin məşhur "İmzasını qoymuş miləl övraqi-həyatə, Yox millətimin xətti bu imzalar içində..." beytini nəzərdə tutaraq yazır ki, "Azərbaycan şairinin bu mübaliğəli, həyəcanlı hökmünə də lermontovların, nekrasovların, çernışevskilərin dərin vətən sevgisinin, vətəni daha qüvvətli, daha gözəl, daha uca mərtəbədə görmək arzusunun xüsusi bədii ifadəsi kimi baxmaq lazımdır". Zənnimizcə, Məhəmməd Hadi poeziyasındakı bu təsir daha çox türk poeziyasına aid edilməlidir. Bu yöndə ədəbi fikirdə münasibətlər haçalanır. Şairin daha çox türk şairi Namik Kamalla bədii-estetik ruh yaxınlığından bəhs edənlər də var, bu müqayisə ilə barışmayıb etiraz edənlər də. Ötən əsrin əvvəllərində Məhəmməd Əmin Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsərində oxuyuruq: "Azərbaycan gəncliyi saf və səmimi bir niyyətlə türk öyrətmənlərinin tələbəsi oldu. Çox keçmədi ki, Namiq Kamal Məhəmməd Hadini, Əbdülhəq Hamid Hüseyn Cavidi, Məhəmməd Əmin

də Əhməd Cavadı oğulluğa qəbul etdilər". Bu mübahisəli fikrə reaksiyaya çağdaş dövrümüzün bir çox tədqiqatçı alimlərinin - Vaqif Sultanlının "Azadlığın üfüqləri", "Azərbaycan mühacirət ədəbiyyatı" kitablarında, Əli Salәddinin "Əhməd Cavad", İslam Qəriblinin "Məhəmməd Hadi və mətbuat (1905-1920)" monoqrafiyalarında, Qara Namazovun məqaləsində və s. kimi əsərlərdə rast gəlirik. Məsələn, gənc tədqiqatçı Tural Hüseynlinin "Azərbaycan obrazı müasir Türkiyə romanında" kitabındakı mövzu ilə bağlı belə qənaətlər səsləndirilir:

"Namiq Kamal (1840-1888) Məhəmməd Hadini (1879-1920) oğulluğa necə qəbul edə bilərdi? N.Kamal vəfat edəndə M.Hadinin 9 yaşı var idi. M.Ə.Rəsulzadənin haqqında söhbət gedən fikri müqayisə səciyyəsi daşıyır, zənnindəyik. Yəni, bu o deməkdir ki, N.Kamal yolunu M.Hadi, Ə.Hamidin yolunu H.Cavid, M.Ə.Yurdaqulun yolunu isə Ə.Cavad davam etdirmiş, birincilər ikinciləri oğulluğa yox, əksinə, ikincilər birinciləri mənəvi atalığa qəbul etmişlər". Buradan məsələnin ikinci məqamına diqqət çəkmək lazım gəlir. Bu təsirlə razılaşmayanların mövqeyinə. Bu etiraz dalğası ədəbiyyatşünas Azər Turanın "Əli bəy Hüseynzadə" monoqrafiyasından gəlir: "Tədqiqatçılar Hadini bəzən Namik Kamalın haləsində görürlər. ... Amma Namik Kamal hər nə qədər böyüksə, Hadinin lirikası ondan geri qalmaz. Hadi ədəbi fikrin yeniliklərə meyli baxımından Namik Kamaldan sonradır. Ancaq onun yazdıqlarında estetik feyz, yaxud mənəvi füyuzatın püskürdüyü ruhi enerjinin estetikası Namik Kamalda yoxdur". Zənnimcə, də Məhəmməd